**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ TƏLİMİNDƏ ÇƏTİN SÖZLƏR ÜZƏRİNDƏ İŞ ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAFININ MÜHÜM VASİTƏSİ KİMİ

İxtisas: 5801.01- Təlim və tərbiyənin nəzəriyyəsi metodikası
(Azərbaycan dilinin tədrisi metodikası)

Elm sahəsi: pedaqogika

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

İddiaçı: **Samirə Mürvət qızı Həsənova**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təlimin nəzəriyyəsi və metodikası şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Asif Xatabala oğlu Hacıyev**

**Rəsmi opponentlər:** filologiya elmləri doktoru, professor
**Akif Kazım oğlu İmanlı**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Bilal Ağabala oğlu Həsənli**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Böyükxanım İbrahim qızı Eminova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

FD 2.15 Dissertasiya
Şurasının sədri: tarix elmləri doktoru, professor
__________________ **Cəfər Məmməd oğlu Cəfərov**

FD 2.15 Dissertasiya
Şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
__________________ **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, dosent
__________________ **Vaqif Tapdıq oğlu Qurbanov**

# TƏDQİQATIN ÜMUMİ XAEAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dil ünsiyyətin ən mühüm vasitəsidir. O, təfəkkürlə birbaşa bağlı olduğundan mürəkkəb proses kimi dəyərləndirilir. Dilin meydana gəlməsi cəmiyyətin sosial tələbatıdır. Hər bir xalqın dili onun tarixi keçmişi, müqəddəs mənəvi sərvəti, milli kimliyidir.

Ana dilimiz - Azərbaycan dili adicə bir ifadə tərzi deyil, o, ömrümüzə məna verən, onu gözəlləşdirən əxlaq dərsliyi, ürəklərə hərarət gətirən, insanı öz keçmişinə bağlayan və gələcəyə səsləyən mənəvi xəzinədir. Ümummilli lider Heydər Əliyev əbəs yerə deməmişdir: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm".[1]

Respublikamızda dil siyasətinin tənzimlənməsi məqsədilə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 saylı fərman, "Azərbaycan Respublikasının dövlət dili haqqında" 2 yanvar 2003-cü ildə qüvvəyə minmiş Qanun, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında (2013-2020-ci illər)" 2012-ci il 23 may tarixli 2236 nömrəli sərəncamlar qəbul edilmişdir. Dilin tədrisinin optimallaşdırılması, təlimdə müasir tendensiyaların tətbiqini labüdləşdirmək istiqamətində isə aşağıda sadalanmış sənədlər təsdiq olunmuşdur: Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) –30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərar, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi" haqqında – 3 iyun 2010-cu il 103 nömrəli qərar. Adıçəkilən sənədlər Azərbaycan dili təliminin təşkilinə xüsusi diqqət yetirilməsi və bu istiqamətdəki fəaliyyətin həssaslıqla qurulmasına geniş imkan-

[1] Abdulrazaqova N. Heydər Əliyev və ana dilimiz. Respublika. 2012, 14 dekabr. s.10

lar açır. Müasir dövrdə ümumtəhsil müəssisəsinin qarşısında dayanan vəzifələrdən biri və ən önəmlisi təhsilalanların şəxsiyyət kimi yetişdirilməsi olduğundan Azərbaycan dilinin tədrisinin daha keyfiyyətli şəkildə aparılması zərurətə çevrilmişdir. Məlumdur ki, doğma dilinə dərindən bələd olmayan şagird şəxsiyyət kimi formalaşa bilməz. Dilin zənginləşdirilməsi, lüğət fondunun genişləndirilməsi, nitqin inkişaf etdirilməsi, onun düzgünlüyü, təmizliyi, zənginliyi, aydınlığı, ifadəliliyi, məntiqliliyi, ahəngdarlığı, dəqiqliyi, yığcamlığı, sadəliyi, münasibliyi, rabitəliliyi, orijinallığı, ekspressivliyi, emosionallığı − bir sözlə, nitq mədəniyyətinin formalaşdırılması şəxsiyyətyönümlü yanaşmanın başlıca üstünlükləridir. Müasir dövrün ana dili təliminin qarşısında qoyduğu tələblər, şagirdləri şəxsiyyət kimi yetişdirməyin vacibliyi nəzərə alınaraq prosesin təşkilinə ibtidai siniflərdən başlanılmışdır. Bu, məsələnin həllinə daha məsuliyyətli yanaşmağın və ona xüsusi diqqət yetirməyin təcəssümüdür. "İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlər üzərində iş şagirdlərin yazı bacarıqlarının inkişaf etdirilməsinin mühüm vasitəsi kimi" sərlövhəli tədqiqat işinin geniş formada araşdırılması da məhz həmin səbəbdən qaynaqlanır.

Deməli, kiçikyaşlı məktəblilərə çətin sözlərin mənimsədilməsi, onlarda yazı bacarıqlarının formalaşdırılması, daha geniş mənada isə öyrənənlərə nitq mədəniyyətinin, doğma dilin öz zənginliyinin ötürülməsi, o cümlədən metodik, ictimai, siyasi baxımdan böyük aktuallıq daşıyır. Dil özlüyündə ictimai hadisədir, bəşəriyyətin mövcudluğunun ən mühüm şərtlərindəndir. Dil yalnız insana məxsusdur. Müasir dövrdə − müstəqil ölkəmizin hazırkı inkişaf mərhələsində Azərbaycan dili respublikamızda yaşayan xalqların əsas ünsiyyət vasitəsi və rəsmi şəkildə təsdiqlənmiş dövlət dilidir. Deməli, Azərbaycan dili cəmiyyətimizin sosial tələbatıdır. Onun ictimai əhəmiyyəti siyasi dəyərini müəyyənləşdirmişdir. Azərbaycan dilinin ictimai mahiyyət daşıması və siyasi məzmunu onun metodik baxımdan da aktuallaşmasını labüdləşdirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ibtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərdə yazı bacarıqlarının inkişaf etdirilməsi və çətin sözlərin mənimsədilməsi prosesidir. Tədqiqatın predmetiibtidai siniflərin Azərbaycan dili dərslərində

şagirdlərdə yazı bacarıqlarının inkişaf etdirilməsi və çətin sözlərin mənimsədilməsi üzrə işin aparılmasından ibarətdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi ibtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərdə yazı bacarıqlarının inkişaf etdirilməsi və çətin sözlərin mənimsədilməsi üzrə işin sistemini hazırlamaqdır.

Məqsədə uyğun olaraq konkret vəzifələr müəyyənləşdirilmişdir.

1. İbtidai siniflərin Azərbaycan dili fənn kurikulumuna əsaslanaraq şagirdlərdə yazı bacarıqlarının inkişaf etdirilməsi, onlara çətin sözlərin mənimsədilməsi üzrə işin sistemini araşdırmaq;
2. "Çətin sözlər" ifadəsinin məzmununu geniş formada açıqlamaq, problemlə əlaqədar ölkəmizdə və xaricdə dərc olunmuş elmi-metodik ədəbiyyatlardakı fikirləri təhlil etmək, ümumiləşdirici nəticələr çıxarmaq;
3. Yazı bacarıqlarının inkişaf etdirilməsinin və çətin sözlərin mənimsədilməsinin məktəblilərdə nitq mədəniyyətinin formalaşmasına, Azərbaycan dilinin dərindən öyrənilməsinə təsirini müəyyənləşdirmək;
4. Problemlə əlaqədar olaraq hazırkı proqramı – Azərbaycan dili fənn kurikulumunun və I-IV sinif Azərbaycan dili dərsliklərinin analizini aparmaq, şagirdlər üçün çətin hesab olunan sözləri, ifadələri seçmək, onların siyahısını tərtib edərək qruplaşdırmaq;
5. İbtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafının qarşısını alan səbəbləri, həmçinin problemin həllinə zəmin yarada biləcək amilləri ortaya çıxarmaq, ümumiləşdirmək, sistemləşdirmək, kiçikyaşlı məktəblilərin çətin, tanış olmayan sözləri öyrənməsinə xidmət edən təlim üsullarını və vasitələrini müəyyənləşdirmək;
6. Tədqiqatın nəticəsi kimi əldə olunmuş fikirləri, yekun rəyləri bu sahə üzrə ixtisaslaşmış mütəxəssislərlə müzakirə etmək, onların iradlarını, tövsiyələrini nəzərə alaraq, işi daha da təkmilləşdirmək.

İbtidai sinif şagirdlərinin yazı bacarıqlarının, nitqinin inkişafı, formalaşdırılması ilə əlaqədar aparılan işlər aşağıdakılar nəzərə alınmaqla səmərəli şəkildə təşkil oluna bilər:

- İbtidai sinif şagirdlərinin nitqinin, o cümlədən yazı bacarıqlarının inkişafını, formalaşdırılmasını təmin edən metodik sistem hazırlanarsa;

- İbtidai sinif şagirdlərinin lüğət fondunun zənginləşdirilməsi istiqamətində görülən işlər həm ölkəmizdə, həm də beynəlxalq miqyasda təcrübədən keçirilmiş müasir təlim üsullarına və uğurla sınaqdan çıxmış metodikaya əsaslanarsa;

- Kiçikyaşlı məktəblilərə çətin sözləri mənimsəmək üçün faydalı üsul və vasitələr tətbiq olunarsa, öyrənənlər ana dilinə daha həssas yanaşaraq, doğma münasibət bəsləyərək Azərbaycan dilinin zəngin lüğət fonduna yiyələnə bilər.

**Tədqiqatın metodları.** Dissertasiya işinin məzmununa və xarakterinə uyğun olaraq tədqiqat prosesində pedaqoji təhlil, məktəb sənədləri ilə tanışlıq, ümumiləşdirmə, müsahibə, anket sorğusu, müşahidə, pedaqoji eksperiment (üç mərhələdə − müəyyənedici, öyrədici, yoxlayıcı), statistik metodlardan faydalanılmışdır.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlər üzərində aparılan iş kiçikyaşlı məktəblilərin lüğət ehtiyatının zəngiləşməsinə zəmin yaradır;
2. İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlər üzərində aparılan iş kiçikyaşlı məktəblilərin rabitəli yazı bacarıqlarının formalaşmasını təmin edir;
3. İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlər üzərində aparılan iş kiçikyaşlı məktəblilərin şifahi nitq bacarıqlarının möhkəmlənməsini labüdləşdirir.

**Tədqiqatın elmi yeniliyi**. Çətin sözlər anlayışı geniş şəkildə araşdırılmış, izahı verilmiş, mənimsədilməsi üçün optimal üsullar təqdim olunmuşdur. Məlumdur ki, ibtidai siniflərdə şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının inkişaf etdirilməsinin əsasında söz üzərində işlərin səmərəli təşkili dayanır. Uşaq mənasını bilmədiyi və ona tanış olmayan sözləri orfoepik, orfoqrafik və semantik baxımdan mənimsəməklə lüğət ehtiyatını genişləndirə bilər. Məhz həmin istiqamətdə düzgün aparılmış işin yekununda kiçikyaşlı məktəbli doğma ana dilinə − Azərbaycan

dilinə həssas münasibət bəsləyir, dilimizin gözəlliyinin vurğununa çevrilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** İbtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərin yazı bacarıqlarının inkişaf etdirilməsi, çətin sözlərin kiçikyaşlı öyrənənlərə mənimsədilməsi doğma dilimizin təlimində xüsusi əhəmiyyətə malikdir. Bu səbəbdən mövzu ilə əlaqədar mülahizələr və fikirlər tədqiqat işində sistemə salınmış, prosesin təşkilinə dair metodik tövsiyələr verilmiş, nəzəri müddəalar elmi cəhətdən dəqiqliklə təsnif olunmuş, respublikamızın ümumtəhsil məktəblərində ibtidai siniflərdə çətin sözlərin mənimsədilməsinin nəzəri əsasları hazırlanmışdır. Dissertasiya işinin nəticələrindən ibtidai sinif müəllimləri Azərbaycan dili dərslərində şagirdlərin yazı bacarıqlarını inkişaf etdirmək, çətin sözləri, terminləri mənimsətmək, o cümlədən dil təlimi prosesini optimallaşdırmaq, dil mütəxəssisləri isə fənnin proqram və dərsliklərinin yeni variantını işləmək, təkmilləşdirilmiş nüsxələrini hazırlamaq məqsədilə faydalana bilər. Tədqiqatda əksini tapmış iradlardan, rəy və təkliflərdən, səmərəliliyin yüksəldilməsinə yönəlmiş elmi fikirlərdən həm dərs prosesində, həm də bu istiqamətdə araşdırmalar apararkən bəhrələnmək mümkündür. İrəli sürülmüş mülahizələr nitq mədəniyyəti təliminin təşkili zamanı da yararlı və dəyərli mənbə kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan Respublikasının Təhsil İnstitutunda hazırlanmış, irəli sürülən fikirlər elmi seminarlarda müzakirə edilmiş, işdəki mübahisəli məqamların dəqiqləşdirilməsində mütəxəssislərin iradları, rəy və təklifləri nəzərə alınmışdır.

Tədqiqat materialları üzrə 15 elmi əsər çap olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 2 fəsil, 8 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

Giriş – 7 səhifə, 11896 işarədən, I fəsil – 46 səhifə, 71328 işarədən (1.1 – 25 səhifə, 44279 işarə; 1.2 – 14 səhifə, 20775 işarə, 1.3 – 7 səhifə, 6225 işarə), II fəsil – 62 səhifə, 110802 işarədən (2.1 – 6 səhifə, 11060 işarə; 2.2. – 7 səhifə, 12088 işarə; 2.3 –6 səhifə, 11672 işarə; 2.4

– 10 səhifə, 18124 işarə; 2.5 – 33 səhifə, 57798 işarə), nəticə – 4 səhifə, 6296 işarədən, istifadə olunmuş ədəbiyyat siyahısı 11 səhifədən, əlavələr 11 səhifədən ibarətdir.

Tədqiqat işinin ümumi həcmi 143 səhifə, 200322 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, istifadə olunmuş tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəsli **"Problemin nəzəri-metodik və praktik məsələləri"** adlanır. Bu fəslin birinci paraqrafında "çətin sözlər" anlayışının mahiyyəti və ana dilinin tədrisi metodikasında qoyuluşu" açıqlanır. "Çətin sözlər" şərti xarakterli istilahdır. Nəzəri-metodik ədəbiyyatlarda çətin sözlər üç istiqamətdə - orfoqrafik, orfoepik, semantik baxımdan şərh olunmuşdur:

Professor Ə.Əfəndizadə "çətin sözlər" anlayışını izah edərkən sırf orfoqrafik istiqaməti əsas götürmüşdür, lakin bilmişdir ki, həmin terminlər metodik nöqteyi-nəzərdən daha geniş məna kəsb edir.[2]

Tədqiqatçı K.Mikayılovun araşdırmalarında "çətin sözlər" anlayışı "mənası aydın olmayan sözlər" anlamında təqdim olunmuşdur. O, "çətin sözlər" anlayışını həm də orfoqrafik baxımdan çətin mənimsənilən sözlərə aid etmişdir.[3]

Professor Y.Kərimov "çətin sözlər" anlayışının öncə məna baxımından izah olunmasını daha səmərəli hesab etmişdir. Onun son onillikdəki təhlillərində isə məsələyə yeni baxış sərgiləməsi nəzərdən yayınmamış və yalnız sözlərin yazılış xüsusiyyətlərini, orfoqrafiyasını diqqət mərkəzində saxlanmışdır.[4]

---

[2] Əfəndizadə Ə.R. Yazılışı çətin sözlər və onların öyrənilməsi yolları. Bakı: Azərtədrisnəşr, 1964. 58 s.

[3] Mikayılov K.X. Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi: V sinif Azərbaycan dili dərsləri üzrə. Bakı: Maarif, 1968. 128 s.

[4] Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Dərslik. Bakı: Nasir, 2005. 520 s.

Tədqiqatçı F.Həsənov problemə etimoloji təhlil fonunda toxunmuşdur. O, anlayışın açıqlamasını verməsə də, çətin sözlərin mənimsədilməsində etimoloji təhlilin geniş imkanlara malik olduğunu vurğulamışdır.[5]

Professor A.Rəhimov məsələyə orfoqrafiya çərçivəsində yanaşmış və "yazılışı çətin sözlər" adı altında qısa təhlillər vermişdir.[6]

Metodist alim H.Balıyev problemə orfoqrafiya prizmasından yanaşmışdır.[7]

Professor N.Abdullayev yalnız semantik istiqaməti əsas götürmüşdür.[8]

Tədqiqatçı alim A.Hacıyevin mövzu ilə bağlı semantik və orfoqrafik istiqamətə xüsusi diqqət yetirməsi nəzəri cəlb edir.[9]

Tədqiqatçı N.Cəfərova çətin sözləri məna baxımdan dərk olunması çətinlik törədən kəlmələr kimi qiymətləndirmişdir. [10]

Problemlə əlaqədar respublikamızda aparılan araşdırmaların əksəriyyəti Azərbaycan dili təliminin yuxarı siniflərini əhatə etdiyindən bu məsələ ibtidai siniflər üzrə hələ də tədqiqata açıq qalmışdır.

Mövzu ilə bağlı Rusiyada aparılan elmi araşdırmalar, həmçinin gəlinən nəticələr də diqqəti cəlb edir. Rus metodistlərinin mövzu ilə bağlı elmi əsərlərini nəzərdən keçirdikdə qrammatik-orfoqrafik və

---

[5] Həsənov F.H. Şagirdlərin şifahi rabitəli nitqinin inkişaf etdirilməsi üzrə işin xüsusiyyətləri. Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2011. № 4, s.31-33

[6] Rəhimov A.N. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə)). Bakı: BQU nəşriyyatı, 2015. 470 s.

[7] Balıyev H.B. Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014. 384 s.

[8] Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları: Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 2014. 278 s.

[9] Hacıyev A.X. Etimoloji təhlil şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinin mühüm vasitəsi kimi.Prof. B.A.Əhmədovun anadan olmasının 75 illiyinə həsr olunmuş məqalələr toplusu. Bakı: Mütərcim, 2007. s.14-20

[10] Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Dərslik. Bakı: ADPU-nəş., 2016. 403 s.

semantik baxış kimi iki fərqli mövqenin mövcudluğunu aydın görmək olar.[11]

Rusiyadan fərqli olaraq Türkiyədə bu istiqamətdə aparılan tədqiqatların tarixi uzaq keçmişə dayanmır, mövzu ilə bağlı tutarlı araşdırmalara son dövrlərdə başlanılmışdır. Milli Eğitim Bakanlığının rəhbərliyi ilə aparılan işlər daha çox diqqəti cəlb edir. İbtidai siniflərin ana dili fənni üçün yeni təhsil proqramının hazırlandığı dövrdə tanış olmayan sözlər "şagirdlərin bilmədiyi kəlmələr" termini kimi tədqiq olunmuşdur.[12]

I fəslin ikinci paraqrafı **"Problem baxımından mövcud proqramın (Kurikulum) və dərsliklərin təhlili"** adlanır. Burada Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri şərh olunmuşdur. Qeyd edilmişdir ki, həmin sənəd hazırlanarkən cəmiyyətin ehtiyac və tələbləri, şagirdlərin imkanları, meyil və maraqları nəzərə alınmışdır. Burada fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar, qiymətləndirmə məsələləri haqqında təhlillər verilmişdir. Azərbaycan dili təliminin məzmunu nəticəyönümlü standartlar əsasında hazırlanmışdır. Haqqında bəhs edilən paraqrafda Azərbaycan dili fənninin məzmun xətləri, əsas və alt standartlar dərsliklərdəki tapşırıqlar mövzu baxımından analiz olunur. Təhlil və ümumiləşdirmə əsasında müəyyənləşdirilmişdir ki, ibtidai siniflər üzrə Azərbaycan dili fənninin məzmun xətlərinin hər birində problemlə bağlı məsələ bərabər səviyyədə qabardılmamışdır. I sinifdə dinləyib-anlama və danışma, yazı, dil qaydaları, II sinifdə dinləyib-anlama və danışma, dil qaydaları, III və IV siniflərdə dinləyib-anlama və danışma məzmun xətlərinin hər bir alt-standartında mövzuya daha həssas yanaşma nümayiş etdirilməsinə ehtiyac vardır.

Tədqiqat işi çərçivəsində R.İsmayılov, G.Orucova, Z.Xəlilin həmmüəllifliyi ilə 1, 2 və 3-cü siniflər üzrə 2014-cü ildə, 4-cü sinif

---

[11] Алгазина Н.Н. Формирование орфографических навыков.Москва: Академия, 2017.60 с.

[12] MEB, İlköğretim Türkçe Dersi Öğretim Programı ve Kılavuzu (1-5. Sınıflar) / Ankara: Devlet Kitapları Müdürlüğü Basımevi, 2005. 413 s.

üzrə 2015-ci ildə çap olunmuş Azərbaycan dili dərsliklərinin təhlili aparılmışdır.

I sinif Azərbaycan dili dərsliyində 89 çətin söz istifadə edilmişdir.[13]

II sinif Azərbaycan dili dərsliyində 179 çətin söz verilmişdir.[14]

III sinif Azərbaycan dili dərsliyində 378 çətin söz istifadə edilmişdir. [15]

IV sinif Azərbaycan dili dərsliyində 349 çətin söz çətin söz verilmişdir.[16]

Hazırda tədris edilən I-IV siniflər üzrə müvafiq olaraq 2020, 2021, 2022, 2023-cü illərdə Ü.Nurullayeva, İ.Bayramova, Ş.Zahidova, N.Allahverdiyeva, A.Xanalıyevanın həmmüəllifliyi ilə çap olunmuş Azərbaycan dili dərsliklərində isə çətin sözlərin sayı nisbətən azdır, məsələn, konkret olaraq IV sinif üzrə 112 söz təşkil edir.[17]

Nəticə etibarı ilə vurğulamaq lazımdır ki, Azərbaycan dili məzmun xətlərinin hər birində yazı prosesinin təşkili, təkmilləşdirilməsi ilə əlaqədar iş aparmaq mümkündür. İbtidai sinif müəllimi öz peşəkarlığını ortaya qoymağı, təlim üsullarını uğurlu monipulyasiya etməyi bacarmalıdır.

Kurikulum islahatı çərçivəsində ənənəvi yanaşmadan köklü şəkildə fərqlənən fənn proqramının işlənilməsi, yeni nəsil dərsliklərin hazırlanması müasir cəmiyyətin inkişaf səviyyəsinə uyğun zəruri bilik, bacarıqları əks etdirən məzmunu ortaya qoysa da, müəyyən problemlər hələ də qalmaqdadır. Bunlar əsasən dərsliklərin tərtibi, müəllimlərin hazırlığı ilə əlaqədardır. Azərbaycan dili məzmun xətti-

---

[13] R.İsmayılov, S.Abdullayeva, G.Orucova və b. Azərbaycan dili:1-ci sinif üçün dərslik. Bakı: Altun Kitab, 2014. 160 s

[14] R.İsmayılov, G.Orucova, Xəlil Z. Azərbaycan dili: 2-ci sinif üçün dərslik. Bakı: Altun Kitab, 2014. 208 s.

[15] Yenə orada.

[16] R.İsmayılov, G.Orucova, D.Cəfərova və b. Azərbaycan dili: 4-cü sinif üçün dərslik. Bakı: Altun Kitab, 2015. 224 s.

[17] https://www.trims.edu.az/noduploads/book/quot-azarbaycan-dili-quot-tadris-dili-fanni-uzra-4-cu-sinif-ucun-darslik-1-ci-hissa.pdf

nə məxsus fəaliyyətlərin hər birində yazı prosesinin təşkili, təkmilləşdirilməsi ilə əlaqədar iş aparmaq mümkündür.

I fəslin üçüncü paraqrafı **“Problem baxımından məktəb təcrübəsinin öyrənilib ümumiləşdirilməsi”** adlanır. Məktəb təcrübəsinin öyrənilməsi məqsədilə ölkəmizin 14 ümumtəhsil müəssisəsində 64 müəllimlə (1 kişi, 63 qadın pedaqoq) anket sorğu, 68 müəllimlə (2 kişi, 66 qadın pedaqoq) şifahi müsahibə keçirilmişdir. Anket sorğusunun sualları belə olmuşdur:

1. Lüğət üzrə işin təşkilinə nə qədər vaxt ayırırsınız və hansı üsullardan istifadə edirsiniz?
2. “Çətin söz” anlayışını necə başa düşürsünüz?
3. Şagirdlərdə ilkin yazı bacarıqlarının yaradılmasında ən çox hansı çətinliklərlə qarşılaşırsınız?
4. Yazı bacarığının yaradılması ilə bağlı təcrübənizdə hansı iş üsullarına geniş yer ayırırsınız?

Sualları cavablandıran müəllimlər problemlə bağlı vəziyyətin aydın mənzərəsini ortaya qoymuşlar.

- Lüğət üzrə işin təşkilinə nə qədər vaxt ayırırsınız sualına verilmiş cavabların təhlili nəticəsində bəlli olmuşdur ki, ibtidai sinif müəllimlərin 32%-i bu fəaliyyətə 5 dəqiqə sərf etdiyini bildirmişdir. Sorğuya qatılanların 24%-i konkret vaxt göstərməmişdir. Müəllimlərin 18%-i Azərbaycan dili dərsinin 10 dəqiqəsini, 11%-i 3-4 dəqiqəsini; 9%-i 1-2 dəqiqəsini, 6%-i isə 15 dəqiqəsini lüğət üzrə işlərə ayırdığını vurğulamışdır.

- Lüğət üzrə işin təşkilində hansı üsullardan istifadə edirsiniz sualına verilən cavabların təhlili nəticəsində bəlli olmuşdur ki, ibtidai sinif müəllimlərinin müəyyən hissəsi prosesinin məzmununu hələ də anlamamış, bu səbəbdən də tənzimlənməsi üsullarını müəyyənləşdirə bilməmişlər. 32% müəllim sualı ya cavablandırmamış, ya da mövzuya aidiyyatı olmayan fikirlər bildirmişdir. Lakin işin təşkili prosesində qabaqcıl və innovativ üsullardan yararlanan, müxtəlif lüğətlərdən istifadə edən pedaqoqlar da mövcuddur. Müəllimlərin 29%-i lüğətlə iş, 9%-i izahat, 7%-i müzakirə, 5%-i tapşırıq, əlifba sırasından istifadə, 4%-i klaster, 2%-i müsahibə və beyin həmləsi, 1% isə elektron

resurslar, cümlə, mətn üzrə iş, anlayışların çıxarılması, BİBÖ kimi cavablar vermişdir.

- Çətin sözlər anlayışının məzmununun müəyyənləşdirilməsinə dair verilən suala müəllimlərin 27%-i mənası çətin, 11%-i yazılışı çətin, 10%-i yazılışı deyilişindən fərqlənən sözlər cavablarını vermişdir. Pedaqoqların 9%-i mövzu ilə əlaqədar fikir bildirməkdən imtina etmişdir. Sorğuya qatılanların 7%-i mürəkkəb, yazılışı, deyilişi, mənası çətin söz, 6%-i yazılışı, deyilişi çətin kəlmələr, 5%-i dialektlər, beynəlmiləl, arxaizmlər, 3%-i az işlənən söz, 2%-i neologizm, termin kimi cavablar vermişdir.

- Şagirdlərdə ilkin yazı bacarıqlarının yaradılmasında ən çox hansı çətinliklərlə qarşılaşırsınız sualının cavablandırılması zamanı müəllimlərin 21%-i qələmi tutmaq, 19%-i hərflərin elementlərini yazmaq, 8%-i dəftərdən istifadə etmək, 7% - düzgün oturmaq və hüsnxət normalarını gözləmək, 5%-i solaxay yazmaq, 4%-i kalliqrafik qaydaları gözləmək, 3%-i sözləri sətirdən-sətirə keçirmək, hecalara ayırmaq, tapşırıqların yetərsizliyi, bağçaya getməmək, barmaqları düzgün tutmaq, hərfləri birləşdirmək, 2%-i sözlərin tələffüzü ilə yazılışı arasındakı fərq, orfoqrafiya qaydalarının çətinliyi, mailiYi gözləmək tipli cavablar vermişdir. Sorğuda iştirak edənlərin 2%-i bu haqda fikir bildirməkdən yayınmışdır. Müəllimlərin 1%-i isə abzas qoymağı ilkin yazı bacarıqlarının yaradılması zamanı şagirdlərin ən çox qarşılaşdıqları çətinlik kimi qiymətləndirmişdir.

- Yazı bacarığının yaradılması ilə bağlı təcrübənizdə hansı iş üsullarına geniş yer ayırırsınız sualına müəllimlərin 16%-i şəkil üzrə iş, 15%-i inşa, 8%-i stimullaşdırma, 7%-i inteqrativ tapşırıqlar, 5%-i imla, esse, üzündən köçürmə, 4%-i lüğət, cümlə üzrə iş, əzbərdən yazma, əməli yazı, 3%-i ifadə, rəğbətləndirmə, nəzmdən nəsrə çevirmə, 2%-i müzakirə, izahat, cədvəl üzrə iş, müxtəlif tipli çalışmalar, 1%-i təhlil, müşahidə, müsahibə, beyin həmləsi cavablarını vermiş, 1%-i qeyri-məlum səbəbdən təlimin formalarını sadalamış, 5%-i isə bu haqda fikir bildirməkdən yayınmışdır.

Müəllimlərin mövzuyla əlaqədar suallara verdikləri cavablar əslində problemin dərinliyini üzə çıxarmış, mövcud vəziyyətdə şagirdlərlə yanaşı, pedaqoqların da təlimlərə cəlb olunması zərurətini

ortaya qoymuşdur. Bu da məsələyə daha diqqətlə yanaşmağı labüdləşdirmiş, belə həssas məqamlar öyrədici eksperimentin təşkili zamanı xüsusilə nəzərə alınmış, müəllimlərə təlimatlandırıcı seminarlar keçirilmiş, məlumat, təcrübə mübadiləsi aparılmış, şəxsi metodika təklif olunmuşdur.

II fəsil **"Şagirdlərin yazı bacarıqlarının inkişafı üzrə işin təşkili"** adlanır. İbtidai siniflərdə şagirdlərin yazı bacarıqlarının formalaşdırılması böyük əhəmiyyət daşıdığından Azərbaycan dili fənn kurikulumunun dörd məzmun xəttindən biri məhz ona həsr edilmişdir. II fəslin birinci paraqrafında "**İbtidai siniflərdə şagirdlərin yazı bacarıqlarının inkişafına təsir göstərən amillər"** açıqlanır. Dünyada və ölkəmizdə bu istiqamətdə aparılmış təsnifat xarakterli tədqiqat işlərini, müəllif araşdırmalarını, həmçinin insanın yaradılış xüsusiyyətlərini nəzərə alaraq fərdi yazı bacarıqlarının iki əsas amilin təsiri nəticəsində formalaşması fikrini irəli sürmək olar: obyektiv və subyektiv amillər. Təlim prosesində yazı bacarıqlarının inkişafı subyektiv faktorlarla sıx bağlıdır. Subyektiv amillər iki qrupa bölünür: fərdin anatomik xüsusiyyətləri və fərdin psixofizioloji xüsusiyyətləri.

Subyektiv amillərlə müqayisədə obyektiv amillər prosesin gedişatında ikinci dərəcəli rol oynayır. Buraya otağın işıqlandırılması, kağızın, yazı alətlərinin keyfiyyəti və s. aid edilir. Yazı təliminin təşkili metodikası obyektiv faktorlar arasında ən önəmlisidir, pedaqoqdan böyük təcrübə, xüsusi istedad tələb edir.

Şagirdlərin yazı bacarıqlarının inkişafına təsir göstərən amillər sırasında təşkilati, psixoloji, coğrafi, sosial-mədəni, tarixi faktorlar sadalanmışdır.

-Linqvistik amillər: dil qaydalarının mənimsədilməsi, sözün yazılışı ilə deyilişinin fərqlənməsi, yazı texnikası, sözün semantik çalarlığı, çətin sözlərin asanlaşdırılma dərəcəsi, lüğət ehtiyatı, əlifba sisteminin dinamikliyi, yazı bacarıqları formalaşdıran tapşırıqların keyfiyyəti.

- Təşkilati amillər: ETT (Elmi texniki tərəqqi), müəllimin hazırlığı, maddi-texniki təminat, dərsliklər və metodik vəsaitlər, resursların əlçatanlığı, proqramda yazı bacarıqlarının mənimsədilməsinə

ayrılan vaxt, təlimin təşkili prosesində çoxsaylı üsulların seçilməsi və tətbiqi, müvafiq təlim formalarından istifadə, optimal strategiyanın tətbiqi.

- Psixoloji amillər: şagirdin daxili motivasiyası, öyrənənlərin stimullaşdırılması, təhsilalanın yaş xüsusiyyətləri, öyrənənin məktəbə hazırlıq səviyyəsi, uşaqların maraq, meyil, istəklərinə əsaslanılması, məktəblinin diqqətinin əsas prosesə yönəldilməsi, müəllim-şagird münasibətləri, şagird-şagird münasibətləri, müəllim-şagird-valideyn münasibətləri, müəllim-valideyn münasibətləri.

- Coğrafi amillər: uşağı əhatə edən mühit, şagirdin yaşadığı bölgə, rayon və ya şəhər, demoqrafik disbalans, məktəbin yerləşmə xüsusiyyətləri.

- Sosial-mədəni amillər: uşağın ictimai mənsubiyyəti (ziyalı və ya qeyri-ziyalı ailədə doğulması), sinfin sosial tərkibi, ailədə ikidillilik şəraiti; şagirdin tərbiyə aldığı ailənin statusu, televiziya, radio, internetin təsiri.

- Tarixi amillər: yazı sistemindən istifadə, yazıda ənənəvi prinsip.

Sadalanan amillərin hər biri kiçikyaşlı məktəblilərin yazı bacarıqlarının inkişafına xeyli dərəcədə təsir göstərir. Məhz bu səbəbdən dərsin təşkili, yazı təliminin planlaşdırılması zamanı həmin faktorlar diqqət mərkəzində saxlanılmalı, müvafiq fəaliyyət istiqaməti seçilməlidir.

Ölkəmizdə ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafına təsir göstərən amillərin sistemləşdirilməsi ilə bağlı tutarlı, genişmiqyaslı araşdırmalar aparılmadığından problem hazırkı dövrdə böyük aktuallıq daşıyır.

II fəslin ikinci paraqrafı **“Azərbaycan dili dərslərində tanış olmayan sözlərin semantik baxımdan açımı və onun şagirdlərin yazı bacarıqlarının inkişafına təsiri”** adlanır. İbtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlər üçün “çətin” sözlər “tanış olmayan” kəlmələr adı ilə proqramda öz əksini tapmışdır.

Söz geniş semantik imkanlara malik olduğundan onun öyrədilməsinə xüsusi diqqət göstərilməlidir. İbtidai siniflərdə məsələyə daha həssas yanaşılmalıdır, çünki şagirdlər adətən həmin dövrdən başlayaraq Azərbaycan dili təliminə cəlb olunur, doğma dili gözəl-

liyini, ahəngdarlığını duyaraq mənimsəyirlər. Məhz buna görə də "Ana dilinin tədrisi deyərkən yalnız dilin fonetikası, morfologiyası, sintaksisi və s. kimi istilahlar deyil, həm də bədii sözün imkanları, insana təsir etmək keyfiyyətləri nəzərdə tutulur".[18]

İbtidai siniflərin Azərbaycan dili dərslərində kiçikyaşlı məktəblilərə tanış olmayan kəlmələrin mənimsədilməsi zamanı semantik baxımdan çətinlik törədən sözlər sırasında terminlər ön cərgədə dayanır desək, yanılmarıq. Elmi anlayışların, terminlərin mənimsədilməsi uşağın nitqinin, təfəkkürünün inkişafında inqilabi rola malikdir. O, obrazlı anlayışların və mücərrəd təfəkkürün formalaşmalaşdırılması ilə sıx əlaqədardır.

Prosesin daha uğurlu nəticələnməsi üçün semantik istiqamət digərləri ilə vəhdətdə təşkil edilməlidir. Belə ki, çətin sözlərin orfoqrafik, orfoepik baxımdan mənimsədilməsi görülən pedaqoji işləri tamamlamaq, onlara yekun vurmaq xarakteri daşıyır.

II fəslin üçüncü paraqrafı **"Orfoqrafik-orfoepik baxımdan çətin sözlər üzərində işin şagirdlərin yazı bacarıqlarının inkişafında rolu"** adlanır. Çətin sözlər üzərində orfoqrafik-orfoepik işin aparılması şagirdlərin yalnız söz bazasını dəqiqləşdirmək, aktivləşdirmək, genişləndirmək xarakteri daşımır, həm də yazı bacarıqlarının inkişafında, doğma dilimizin gözəlliklərini anlamaqda əvəzedilməz rol oynayır. Kiçikyaşlı məktəblilərə çətin sözlər mənimsədilərkən orfoqrafiya və orfoepiyaya eyni dərəcədə diqqət göstərilməlidir. Həmin istiqamətlərdə aparılan işlərin paralel şəkildə tənzimlənməsi daha məqsədəuyğundur. Müəllim ibtidai sinif şagirdlərinə çətin sözləri orfoqrafik-orfoepik baxımdan mənimsətməklə onlarda savadlı nitq vərdişləri, o cümlədən mükəmməl yazı bacarıqları formalaşdıra bilər.

Uşaqlara çətin sözü mənimsətməyin mərhələlərindən biri orfoqrafik, orfoepik çalışmaların verilməsindən ibarətdir.

Öyrənənlərə lüğətçə hazırlamağı, naməlum hesab etdikləri sözləri orada qeyd etməyi, orfoqrafik-orfoepik baxımdan çətinlik

---

[18] Nəbiyeva Ş.Z. Ana dili tədrisi metodikasının aktual problemləri. Bakı: ADPU-nun mətbəəsi, 2010. 127 s.

törədən səs və ya hərflərin altından xətt çəkməyi tapşırmaq da işin keyfiyyətini yüksəltməyə hesablanmışdır.

Çətin sözlərin orfoqrafik-orfoepik baxımdan mənimsədilməsində imla xüsusi əhəmiyyətə malikdir. Müəllimin kiçikyaşlı məktəblilərin marağını cəlb edən çoxçeşidli imla növlərindən (şəkilli, görmə, kommentarili (izahlı), xəbərdarlıqlı, izahatlı, müəyyənləşdirici, seçmə, yaradıcı, yaddaşa əsaslanan, tapmacalı, boşluqlu imla və s.) yararlanması tövsiyə olunur.

Verilən mövzu əsasında qısa mətn qurmaq mövcud vəziyyət üçün ən optimal tapşırıq növlərindəndir.

Kiçikyaşlı məktəblilərə müəyyən əşya və ya hadisə ilə əlaqədar suallar ünvanlamaq, göstərişlər vermək də çətin sözlərin mənimsədilməsinə köməklik göstərən tapşırıq növlərindəndir.

Kiçikyaşlı məktəblilərin şəxsi linqvistik lüğətçələrinin hazırlanması keyfiyyətli nəticənin əldə olunmasına zəmin yaradır.

Çətin sözlərin orfoqrafik-orfoepik baxımdan öyrədilməsi bir dərslə məhdudlaşmayan, təlimin hər mərhələsində davam edən prosesdir.

Orfoqrafiya və orfoepiya üzrə aparılan işlərin sinifdənxaric məşğələlərdə də davam etdirilməsi tövsiyə olunur.

II fəslin dördüncü paraqrafı **"Rabitəli yazı üzrə işin təşkili"** adlanır. Rabitəli nitq dedikdə, ilk növbədə, şagirdin öz fikrini səlis, aydın, ardıcıl, yığcam və təsirli şəkildə ifadə etməsi nəzərdə tutulur.[19]

Respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərinin Azərbaycan dili dərslərində nitq inkişafı üzrə aparılan işlər aşağıdakı kimi sistemləşdirilmişdir:

- nitqin səs mədəniyyəti üzrə işlər;
- ədəbi tələffüz üzrə işlər;
- lüğət üzrə işlər;
- cümlə üzərində işlər;
- rabitəli nitqin inkişafı üzrə görülən işlər.

---

[19] Əhmədov B.A. Etimologiya lüğəti. Bakı: Altun Kitab, 2015. 288 s.

Sadalananlar arasında məhz sonuncu istiqamət – nitq inkişafı üzrə həyata keçirilən işlər bu prosesin məntiqi yekunudur. Rabitəli yazı bacarıqlarının inkişaf etdirilməsi üzrə işlər adətən çalışmalar vasitəsilə aparılır, bəzən Azərbaycan dili dərsinin müəyyən bir hissəsini, bəzən də bütövlükdə hamısını əhatələyir.

Üzündən köçürmə ən sadə və hamı üçün müyəssər yazı növü hesab edilir. Bundan əlavə esse, inşa, ifadə, imladan istifadə olunması da məqsədəuyğundur.

Mətnyönümlü yanaşma dünya təcrübəsində şagirdlərin rabitəli yazı bacarıqlarının formalaşdırılmasının ən mükəmməl yolu hesab edilir.

İbtidai sinif şagirdlərində rabitəli yazı bacarıqlarının formalaşdırılması istiqamətində özünü göstərən çatışmazlıqlar, mövzu ilə birbaşa bağlı olan tədqiqatların azlığı və sistemsizliyi problemi müasir dövrdə də aktuallaşdırır.

II fəslin beşinci paraqrafı **"Eksperimentin təşkili və ümumiləşdirilməsi"** adlanır. Pedaqoji eksperiment üç mərhələdə həyata keçirilmişdir:

1. Müəyyənedici;
2. Öyrədici;
3. Yoxlayıcı.

Birinci mərhələdə (2014-2015-ci tədris ilində) respublikamızın on dörd ümumtəhsil müəssisəsində – Bakı şəhəri üzrə dörd tam orta məktəb (27 nömrəli tam orta məktəb, Q.Qəhrəmanov adına 65 №-li tam orta məktəb, A.Qambayzadə adına 148 №-li tam orta məktəb, 250№-li tam orta məktəb), bir lisey (Zəngi liseyi), bir gimnaziyada (İlyas Əfəndiyev adına Elitar gimnaziya) müəllimlərlə anket sorğu (yazılı), iki tam orta məktəb (53 №-li tam orta məktəb, 55 №-li tam orta məktəb, 56 №-li tam orta məktəbdə), bir gimnaziyada (S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya) bölgələr üzrə dörd ümumtəhsil müəssisəsində (Xaçmaz rayon Xudat şəhər 1 №-li tam orta məktəb, Lerik rayonu Zenonu kənd ümumi orta məktəb, Qax Zəyəm rayonu kənd ümumi orta məktəb, Goranboy rayon Qızılhacılı qəsəbə M.Dosiyev adına 2 №-li tam orta məktəb) ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının, həmçinin kiçikyaşlı məktəblilərin

çətin sözləri mənimsəmə səviyyəsi, tədqiqatın başlıca istiqamətləri müəyyənləşdirilmiş, mövcud problemlər aşkar edilmiş, onların aradan qaldırılması üçün yollar işlənilib hazırlanılmışdır.

İkinci mərhələdə (2015-2016-cı tədris ilində) Bakı şəhəri 27 və 55 nömrəli tam orta məktəblərin 4 "a" və 4 "b" siniflərində öyrədici eksperiment aparılmış, düzgün yazı bacarıqlarının formalaşdırılması, çətin sözlərin mənimsədilməsi üçün optimal üsullar tətbiq olunmuş, aprobasiyadan keçirilmiş, nəzəri-metodoloji müddəalar əsaslandırılmış, işin təşkili üzrə modellər hazırlanmışdır.

Üçüncü mərhələdə (2017-2020-ci tədris ilində) eksperiment yekunlaşdırılmış, təhlillər aparılmış, hazırlanmış modellərin aprobasiyasından əldə olunmuş məlumatlar sistemləşdirilmiş, nəticələr çıxarılmış, təkliflər ümumiləşdirilmişdir.

Respublikamızın ümumtəhsil müəssisələrində keçirilmiş anket sorğusuna ümumilikdə 566 şagird cəlb olunmuşdur: olardan 248 (44%) qız, 318 (56%) oğlandır. Eksperimenti əhatə edən şagirdlərdən 455-i (193 (42%) qız, 262 (58%) oğlan) şəhər məktəblərində, 111-i (55 (49%) qız, 56 (51%) oğlan) bölgələrdə təhsil alır.

Aparılan sorğular nəticəsində belə bir fakt ortaya çıxmışdır ki, müəllimlərinəksəriyyəti "çətin sözlər" dedikdə ya mürəkkəb söz, mənası çətin söz, ya da yazılışı deyilişindən fərqlənən, tələffüzü çətinlik törədən sözləri, məktəblilər isə düzgün yazmaqda çətinlik çəkdikləri kəlmələri nəzərdə tuturlar.

Problemin həlli məqsədilə metodika – üsullar, texnikalar təklif olunmuşdur.

Tədqiqatla bağlı aşağıdakı **nəticə** alınmışdır:

1. İbtidai sinif şagirdlərinə çətin sözlərin mənimsədilməsi Azərbaycan dilitəliminin qarşısında qoyulmuş digər vəzifələrdən təcrid olunmuş formada deyil, bütün funksiyalarla qarşılıqlı əlaqə zəminində həyata keçirilməlidir.

2. İbtidai sinif şagirdlərinə çətin sözlərin mənimsədilməsi prosesidoğma dilə sevgi, ana dilinin saflığının qorunmasına xüsusi qayğı və lüğət ehtiyatının genişləndirilməsi, dəqiqləşdirilməsi, zənginləşdirilməsi fonunda təşkil edilməlidir;

3. İbtidai sinif şagirdlərinə çətin sözlərin mənimsədilməsi üzrə aparılan işlərin,tətbiq olunan üsulların, həmçinin onların reallaşmasına zəmin yaradan vasitələrin hamısı vəhdətdə həyata keçirilməlidir;

4. İbtidai sinif şagirdlərinə çətin sözlərin mənimsədilməsi zamanı uşaqların spesifik fizioloji (sağlamlıq imkanları) və psixoloji xüsusiyyətlərinin – daxili imkanlarının, maraqlarının, meyillərinin, o cümlədən, coğrafi-regional müxtəlifliyin nəzərə alınması mütləqdir;

5. İbtidai sinif şagirdlərinə çətin sözləri mənimsədərkən Azərbaycan dili fənn kurikulumunun hər bir məzmun xəttiəsas istiqamət kimi götürülməli, işin təşkili məqsədilə dinamik xarakterli fəaliyyət planı, həmçinin ehtiyat variant öncədən hazırlanmalıdır;

6. İbtidai sinif şagirdlərinə çətin sözlərin mənimsədilməsi prosesinə hər dərsdə xüsusi vaxt ayrılmasa da, yaranmış təlim situasiyalarından lazımınca faydalanmaqla uşaqların lüğət ehtiyatını artırmaq lazımdır;

7. Kiçikyaşlı məktəblilərə “yad” sözləri mənimsədərkən onlar üçün “çətin hesab olunan orfoqramlar”ın “asanlaşdırılması” məsələsinə də diqqət yetirmək son dərəcədə vacibdir;

8. Şagird sinifdən sinifə (və ya başqa məktəbə) keçdikcə, ətraf aləm haqqında daha geniş məlumat topladıqca, təzə tanışlar qazandıqca, mühitini dəyişdikcə, hətta tanış olmayan kəlmələrlə rastlaşdıqca və “çətin” söz öyrəndikcə onun əlavə yeni kəlmə, ifadə ilə qarşılaşması istisna deyil. Çünki məlum və qeyri-məlum anlayışlar bir-biri ilə sıx əlaqədə formalaşır. Bu nüans ibtidai sinif müəlliminin uzunmüddətli yaddaşında qalmalı, fəaliyyət istiqamətində nəzərə alınmalıdır;

9. Uşaqlarda şəxsi linqvistik lüğətçələr hazırlamaq bacarığı formalaşdırmaq aparılan işin keyfiyyətini yüksəltməyə qadirdir. Problemlə əlaqədar olaraq mövcud boşluqları aradan qaldırmaq üçün Azərbaycan dilinin tədrisi prosesində həmin məsələyə həssaslıqla yanaşılmalıdır;

10. İbtidai sinif şagirdlərində yazı bacarıqlarının formalaşdırılması tanış olmayan sözlərin mənimsədilməsi prosesindən təcrid edilmiş şəkildə aparıla bilməz. İşin təşkili zamanı yalnız orfoqrafiya ilə bağlı istiqamətin əsas götürülməsi tamamilə yanlışdır. Çünki uşaq

mənasını və ya tələffüzünü bilmədiyi sözü düzgün yazmaqda çətinlik çəkir. Bu səbəbdən də çətin sözlər kiçikyaşlı məktəblilərə mənimsədilərkən həm orfoqrafik, həm orfoepik, həm də semantik istiqamətlərdə iş aparılmalıdır;

11. İbtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşdırılması yazının rabitəliliyin tənzimlənməsi, qorunması ilə bağlı aparılan fəaliyyətlə həmahənglik təşkil etməlidir.

Tədqiqat prosesində gəldiyimiz nəticələrə əsasən aşağıdakı **təkliflərin** nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1. Hazırda respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərində istifadə edilən Azərbaycan dili dərsliklərindəki çalışmaların sayı və çeşidi kifayət qədər olsa da, onların yalnız kiçik bir hissəsi çətin sözlərin mənimsədilməsinə yönəldilmişdir. Forma, məzmun zənginliyinə malik tapşırıqların müəyyən qisminin məhz mövcud problemin həllinə hesablanması, bu istiqamətdə yetərli saydaçalışmanın hazırlanması və dərsliklərə daxil edilməsimövcud boşluqların aradan qaldırılmasına, məsələnin çözümünə böyük töhfə verər;

2. Hazırda respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərində istifadə edilən Azərbaycan dili dərsliklərində "kiçik lüğətçə", "söz ehtiyatı", "sözlük"və ya "söz boğçası" və s. adlı şərh bölməsinin verilməsində balans gözlənilməmişdir. Belə ki, I sinif Azərbaycan dili dərsliyində həmin əlavənin daxil edilməsinə ümumiyyətlə ehtiyac duyulmamış, prosesin tənzimlənməsinə II sinifdən etibarən başlanılmışdır (ənənə IV sinifə qədər qorunmuşdur). I sinif Azərbaycan dili dərsliyində "kiçik lüğətçə", "söz ehtiyatı","sözlük", "söz boğçası" və s. adlarda tanış olmayan kəlmələrin şərhi, izahatı bölməsinin verilməsi və oyun fəaliyyətindən təlim dövrünə yenicə qədəm qoyan uşaqların diqqətininçətin sözlərə yönəldilməsi üçün müxtəlif əlvan rənglərlə fərqləndirilməsi işin gedişatına müsbət təsir göstərər;

3. Respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərinin Azərbaycan dili fənn kurikulumunda məzmun xətlərinin hər birində problemin bərabər səviyyədə, balanslı şəkildə qabardılmadığı müəyyənləşdirilmişdir. I sinifdə dinləyib-anlama və danışma, yazı,

dil qaydaları, II sinifdə dinləyib-anlama və danışma, dil qaydaları, III və IV siniflərdə dinləyib-anlama və danışma məzmun xətlərinin demək olar ki, heç bir alt-standartında həmin mövzuya toxunulmamışdır. Məsələyə daha böyük həssaslıq göstərilməsi, proqramın yeni variantının hazırlanması zamanı bu məqamın nəzərə alınması işin təşkilində öz töhfəsini verə bilər;

4. Tədqiqat zamanı respublikamızın ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərinə mənimsədilən yad, tanış olmayan kəlmələrin qrammatik mənsubiyyəti də diqqətdən yayınmamışdır. Kiçikyaşlı məktəblilərə "çətin" söz kimi öyrədilən kəlmələrin nitq hissələrinə görə bölgüsündə balans qorunmamışdır. Belə ki, mənimsədilməsi nəzərdə tutulan sözlərin böyük hissəsi isimdir (622 söz). Bölgü üzrə siyahıda 2-ci yer feilə (236 söz), 3-cü yer sifətə (107 söz), 4-cü yer zərfə (20 söz), 5-ci yer isə köməkçi nitq hissələrinə (8 söz) aiddir. Əvəzliyin isə cəmi bir çətin sözlə təmsil olunması müəyyənləşdirilmişdir. I sinifdən başlayaraq yuxarılara doğru zərf, əvəzlik və köməkçi nitq hissələrinə məxsus yeni kəlmələrin sayı tədricən artırılarsa, digər nitq hissələri ilə balanslaşdırılaraq uşaqlara mənimsədilərsə, görülən işin səmərəliliyi artar, keyfiyyəti yüksələr;

5. İbtidai sinif şagirdlərinə yad, çətin sözləri mənimsətmək üçün faydalı hesab olunan üsullar və onları reallaşdırmaq yolları barədə metodik vəsaitin, izahlı təqdimatlardan, dərs nümunələrindən ibarət audio-vizual təlim vasitəsinin, həmçinin rabitəli yazı bacarıqlarının formalaşmasına xidmət göstərən metodlar toplusunun hazırlanması problemin həllinə öz töhfəsini verə bilər;

6. Respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərində aparılmış pedaqoji müşahidələr zamanı innovativ üsullarla dərs keçən və maraqlı şəxsi tədris metodikasına malik müəllimlərə də rast gəlinmişdir. Təlim prosesinə rəng qatan, uşaqları əyləndirərək öyrədən – onlara tanış olmayan sözləri mənimsədən, keyfiyyətli nəticələr əldə edən praktik müəllimlərin pedaqoji təcrübəsindən, şəxsi təlim üsullarından faydalanmaq, həmin metodikanı geniş auditoriyaya yaymaq problemin aradan qaldırılmasına öz müsbət təsirini göstərər;

Problemlə əlaqədar gəlinən nəticələr və irəli sürülən təkliflər mövcud çatışmazlıqların, boşluqların aradan qaldırılmasına hesablanmışdır.

Dissertasiyanın məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Həsənova S.M. “Çətin sözlər” anlayışının mahiyyəti və metodik baxımdan açıqlanması, 2013, №6, s. 74-77

2. Гасанова С.М. Методика над трудными словами в начальных классов, “Международные VII Волковские чтения, Интеграция этнопедагогических процессов в образовательном пространстве: проблемы и перспективы” сборник научных трудов, Стерлитамак, 2013, s. 32-34

3. Həsənova S.M. Heydər Əliyev və Azərbaycan dili, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri (xüsusi buraxılış), Bakı, 2013, №3, s. 107-108

4. Гасанова С.М. О сущности понятия “трудные слова” (взгляд на историю иследований, проведенных в России, Современные проблемы гуманитарных и естественных наук, материалы XXVII международный научно-практической конференции, Москва, 2013, s. 342-346

5. Həsənova S.M. Çətin sözlər üzərində iş şagird şəxsiyyətinin formalaşdırılması vasitələrindən biri kimi, Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı mövzusunda Beynəlxalq Elmi Konfransı, Bakı, 2014, s. 129-132

6. Həsənova S.M. İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlər üzərində işin istiqamətləri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Konfransı, Bakı, 2015, s. 1307-1308

7. Гасанова С.М. Особенности работы над трудными словами на уроке Азербайджанского языка в начальных классах, Теория и практика общественного развития научный журнал, Краснодар, 2015, №14, s. 134-137

8. Həsənova S.M. İbtidai siniflərin Azərbaycan dili dərslərində çətin sözlərlə iş şagirdlərin lüğət ehtiyatının formalaşdırılmasının mühüm vasitəsi kimi, 2015, №4, s. 48-51

9. Həsənova S.M. Çətin sözlərin öyrədilməsi baxımından I sinif Azərbaycan dili dərsliyinin təhlili. Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı, Bakı, 2016, s. 314-316

10. Həsənova S.M. İbtidai sinif şagirdlərinin lüğət ehtiyatının terminlər, elmi anlayışlar hesabına zənginləşdirilməsi, "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" mövzusunda Respublika elmi konfransı, Bakı, 2018, s. 139-140

11. Həsənova S.M. İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında müasir Azərbaycan dili dərsliklərinin rolu, Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda keçirilmiş Respublika elmi konfransı, Mingəçevir, 2019, s. 180-182

12. Həsənova S.M. Orfoqrafik-orfoepik baxımdan çətin sözlər üzərində işin şagirdlərin yazı bacarıqlarının inkişafında rolu, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Bakı, 2019, №1, s. 100-103

13. Həsənova S.M. İbtidai siniflərdə şagirdlərin yazı bacarıqlarının inkişafına təsir göstərən amillər, Qızlar Universitetinin Elmi Əsərləri, Bakı, 2019, №1, s. 167-171

14. Həsənova S.M. İbtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşdırılması üzrə işin təşkili. "Kurikulum" jurnalı, Bakı, 2019, №1, s. 70-74

15. Həsənova S.M. Çətin sözlər üzərində işin şagirdlərin yazı bacarıqlarının inkişafında rolu. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş doktorant və gənc tədqiqatçilarin XXVI respublika elmi konfransinin materialları (Humanitar elmlər). Bakı şəhəri, 17-18 noyabr 2023-cü il, s.230-233

Dissertasiyanın müdafiəsi 10 may 2024-cü il tarixdə saat 14.00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 aprel 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:08.04.2024
Kağızın formatı: 60/84
Həcm: 36091
Tiraj: 100